AGHAOGHLU
NEGOTIATION AND
CONTRACT DRAFTING
COMPETITION

---

# MÖVQE SƏNƏDİ

**“Nova Defense” MMC**

K18

09.12.2025

“Nova Defense” MMC və “Ares Technology” QSC IronHeaven-24” pilotsuz uçuş aparatının istehsalı və satışı üzrə davamlı danışıqlar aparmış və nəticədə Tərəflər arasında Françayzinq müqaviləsi bağlanmışdır. “Ares Technology” QSC ilə birgə əməkdaşlıq “Nova Defence” MMC üçün həm yerli bazarda istehsal gücünü qurmaq, həm də PUA texnologiyasının uzunmüddətli isehsal və satış imkanlarını əldə etmək baxımından həlledici əhəmiyyət kəsb edir. Danışıqların aparıldığı dövrdə “Nova Defense” MMC əməkdaşlıqla bağlı maraq və mənafelərinin təmin olunması məqsədilə aşağıda qeyd olunan prioritet məsələlərin müqavilədə detallı şəkildə tənzimlənməsini nəzərdə tutmuşdur:

**1.** “Nova Defense” MMC üçün ən prioritet məsələ dünya üzrə PUA texnologiyası satışı ilə məşğul olan yeganə şirkət olmasıdır. Digər şirkətlər də eyni zamanda texnologiyanın istehsalı və satışı ilə məşğul olma imkanına sahib olarsa, bu bazarda həmin texnologiya ilə bağlı rəqabətin güclənməsinə və nəticədə şirkətimizə maliyyə itkilərinin dəyməsinə səbəb ola bilər. Əgər şirkətimiz rəqabətdə uduzarsa, həm əməkdaşlıqla nəzərdə tutulmuş potensial gəlirlərdən məhrum olacaq, həm də müqavilə ilə öz üzərinə götürdüyü pay haqqını ödəmək qabiliyyətini itirəcəkdir. Bu səbəbdən tərəflər razılaşmışlar ki, müvafiq texnologiyanın istehsalı və satışı məqsədilə şirkətimizə müstəsna lisenziya veriləcək. “Ares Technology” QSC mevafiq texnologiya ilə bağlı digər heç bir 3-cü şəxslərə lisenziya hüquqları verməyəcəyinə müqavilə ilə zəmanət vermişdir.*(bax:Müqavilənin 3.1 və 5.2.2-ci bəndləri)*

**2.** ABŞ bazarlarında “ Nova Defense” MMC-yə məhdudiyyət qoyulduğundan və şirkətimizin direktoru cənab Ataş Barıtov Şərq ölkələrində geniş əlaqələrə malik olduğundan şirkətimiz ABŞ bazarlarında texnologiyanın satışının həyata keçirilməsinin risklərə səbəb olacağını nəzərə alır və bu səbəbdən texnologiyanın Şərq ölkələrində satışına məhz “Nova Defense” MMC-nin nəzarət etməsini zəruri hesab edir. Bununla əlaqədar tərəflər arasında dünya bazarları üzrə texnologiyanın satış bölgüsü aparılmış, “Nova Defense” MMC satışları Azərbaycan və Asiya bazarlarında, “Ares technology” QSC isə satışları Azərbaycan və Asiya bazarı istisna olmaqla digər dünya dövlətlərinin bazarlarında həyata keçirəcək. Həmçinin “Ares Technology” QSC Azərbaycanda və Asiya dövlətlərindən olan müştərilərini “Nova Defense” MMC-yə cəlb edəcək və şəxsən özü həmin ərazilərdə satış həyata keçirməyəcək. Müştərilərlə davamlı əməkdaşlıq qurarkən müvafiq əməkdaşlığın şirkətimizin maraq və mənafeyi üçün əlverişli olub-olmadığı nəzərə alınacaqdır və əgər müvafiq əməkdaşlığın qurulmasına imkan verməyən əsaslı səbəblər olduqda “Nova Defense” MMC müvafiq əməkdaşlıq təklifindən imtina etmək hüququna malikdir və bununla bağlı “Ares Technology” QSC qarşısında heç bir məsuliyyət daşımayacaqdır. Nəticədə, Azərbaycan və Şərq bazarında PUA-nın satışı müstəsna olaraq “Nova Defense” MMC-nin nəzarətində həyat keçiriləcək və şirkətimiz Azərbaycan bazarında texnologiyanın satışı üzrə lider mövqeyə malik olacaq.*(bax:Müqavilənin 3.1.3 və 3.1.4-cü bəndləri)*

**3.** “Nova Defense” MMC üçün yerli bazar, xüsusilə Silahlı Qüvvələrin təminatı xüsusi əhəmiyyət daşıyır və bu satışlar müstəsna olaraq şirkətimizin nəzarəti altında keçirilməlidir. Bu məqsədlə satışların illik təqribi 5 min ədəd həcmində olması müəyyən edilir və potensial maliyyə risklərinin qarşısını almaq məqsədilə qarşı tərəflə illik minumum satış hədəfi ilk təqvim ili üçün 2000, növbəti təqvim illəri üçün 3000 ədəd müəyyən olundu. Nəzərə alsaq ki, Müqavilənin qüvvədə olduğu ilk təqvim ilinin müəyyən hissəsi yalnız məhsul istehsalına sərf olunacaq, yeni yaranmış şirkət olaraq minumumu yüksək qoymaq ciddi maliyə risklərinə gətirib çıxara bilər.*(bax:Müqavilənin 5.3.6-cı bəndi)*

**4.** Birgə əməkdaşlıq dövründə “Nova Defense” MMC-nin mühəndisləri PUA texnologiyasına modifikasiyalar edərək daha yaxşı məmulat əldə edə biləcəkləri qənaətindədirlər. Bununla bağlı modifikasiyalar üzərində mülkiyyət hüquqlarına sahib olmaq böyük əhəmiyyət daşıyır. Bu səbəbdən tərəflər müqavilə üzrə razılaşmışlar ki, “Nova Defense” MMC texnologiya ilə bağlı

modifikasiyalar üzərində tam mülkiyyət hüququna və Müqavilənin xitamından sonrakı 5 təqvim ili müddəti başa çatdıqdan sonra modifikasiya olunmuş məhsul üzərində patent əldə edə və azad, qeyri-məhdud satışını həyata keçirə hüququna malikdir. "Ares Technology" QSC müvafiq fəaliyyətin həyata keçirilməsinə hər hansı üsul və vasitələrlə maneə törətməyəcəyinə müqavilə ilə zəmanət vermişdir.*(bax:Müqavilənin 5.2.3 və 5.3.8-ci bəndləri)*

**5.** Şirkətimiz yeni yaranmış olsa da, müdafiə sənayesində peşəkar kadrlara və yüksək səviyyəli texnologiyaya və ləvazimatlara malikdir, lakin PUA texnologiyasının mexaniki, fiziki və digər istehsal xüsusiyyətləri ilə tanış olmadan qüsurlardan azad məhsul istehsal etmək mümkün deyil, eyni zamanda qüsurlu məhsulun satışı 3-cü şəxslərin həyat və sağlamlığına, o cümlədən əmlakına ciddi ziyan vura bilər. Bu səbəbdən tərəflər razılaşmışdır ki, "Ares Technology" QSC-nin ixtisaslı kadrları şirkətimizin texnologiyanın istehsalına cəlb olunacaq işçilərinə 2 aylıq əyani təlim keçəcəkdir.*(bax:Müqavilənin 7-ci bəndi)*

Eyni zamanda tam qüsursuz texnologiya əsasında məhsul istehsal etmək məqsədilə "Ares Technology" QSC tərəfindən təhvil verilmiş texnologiya sınaqdan keçiriləcəkdir. mexaniki, fiziki və digər istehsal xüsusiyyətləri ilə tanış olmadan texnologiyanınn sınaqdan keçirilməsi müsbət nəticə verməyəcəyindən sınaq prosesi təlimlər başa çatdıqdan sonra həyatan keçiriləcəkdir. Texnologiyada qüsur aşkar edilərsə, qüsurlar müqavilədə qeyd olunan qaydada öz hesabına aradan qaldırılmalıdır. Qüsurlar aradan qaldırıla bilmədikdə və ya bundan imtina edildikdə artıq qüsurlu məhsulla fəaliyyət həyata keçirmək riskli olduğundan "Nova Defense" MMC müqaviləni ləğv etmək və ödənilmiş avans lisenziya ödənişini geri qaytarmaq hüququna malikdir.*(bax:Müqavilənin 7-ci bəndi)*

**6.** Direktor Ataş Barıtovun əldə etdiyi məlumata əsasən, PUA-nın texnologiyasının qanuni əsaslarla "Ares Technology" QSC-yə məxsus olmasına dair şübhələr mövcuddur. Bu şübhələri aradan qaldırmaq məqsədilə müqavilə ilə "Ares Technology" QSC PUA texnologiyasının qanuni sahibi olduğuna zəmanət vermiş, bu faktı sübut edən sənədləri bizə təqdim etmək öhdəliyi götürmüş və sənəd/məlumatların düzgünlüyünə görə məsuliyyət daşıyacaqdır.*(bax: müqavilənin 4.1.1; 4.2 və 5.2.1-ci bəndləri)*

**7.** "Nova Defense" MMC PUA-nın texnologiya transferinə və lisenziyasına görə 5 milyon avro lisenziya ödənişi və müqavilədə qeyd olunmuş satışlardan pay haqqı verməyi öhdəsinə götürmüşdür. "Nova Defense" MMC hazırda bank hesablarında yalnız 3 milyon avro həcmində likvid vəsaitə sahibdir. Eyni zamanda "Nova Defense" MMC yeni yaranmış bir şirkət olaraq ilkin fəaliyyət mexanizmini kredit götürülməsi hesabına maliyyələşdirmişdir. Hazırda müvafiq kredit tarixçəsinə malik olmadığı üçün bank tərəfindən ağır kredit şərtləri ilə kredit verilmiş və ödəniş müddəti artıq gəlib çatmışdır.

Bununla əlaqədar lisenziya ödənişi iki yerə bölünəcək və 2 milyon avro hissəsi avans qaydasında ödəniləcək. Bu yolla müqavilə bağlanan anda şirkət hesabında müqavilə ilə bağlı xərcləri və digər şirkət xərclərini, həmçinin vaxtı çatmış kredit ödənişini ödəmək üçün üçün 1 milyon avro vəsait saxlanılacaqdır. Müqavilə ilə tərəflər razılaşmışdır ki, qalan 3 milyon avro lisenziya ödənişi sınaq prosesi başa çatdıqdan sonra, yəni, təhvil-təslim, təlim və sınaq müddətlərini nəzərə alaraq 8 ay, 2 həftə sonra ödənilsin. Nəzərə alsaq ki, növbəti üç ay ərzində isə şirkətimizin təsisçisi tərəfindən daha 2 milyon avro həcmində kapital qoyuluşu gözlənilir, bu müddət ərzində qalan lisenziya ödənişini ödəmək qabiliyyəti əldə etmiş oluruq.*(bax:Müqavilənin 6.2; 6.3; 7.2; 7.4; 8.1-ci bəndləri)*

Eyni zamanda yeni yaranmış şirkət olaraq məhdud maliyyə imkanlarımızı nəzərə alaraq danışıqlar prosesində qarşı tərəf tərəfindən yuxarıda qeyd olunmuş rüblük ödənişlərin ilə bağlı yüksək həcmli təkliflər edilsə də, ödənişlərin miqdarını Müqavilədə qeyd edilən miqdarda

endirdik. Bu sayədə malik olduğumuz büdcəmizi aşmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq imkanı əldə etmiş olacağıq.*(bax:Müqavilənin 8.1-ci bəndi)*

Nəzərə almaq lazımdır ki, şirkətin maliyyə gücü yalnız təsisçinin kapital qoyuluşuna arxalana bilməz. Bu səbəbdən və “Ares Technology” QSC-nin öz ölkəsində istehsal etmək istədiyi texnologiya üçün lazım olan xammalın “Nova Defense” MMC tərəfindən satın alınması təklifini qəbul etmiş və avans formasında yüksək həcmli satış qiyməti müəyyən etmişik. Bu üsulla şirkətimizə mövcud olan xərclərimizi qarşılamaq üçün xaricdən maliyyə vəsaiti axını yaratmışıq.*(bax:Müqavilənin 8.2; 8.3 və 8.4-cü bəndləri)*

Eyni zamanda Azərbaycan Respublikasının Konstitusiyasının 19-cu maddəsinə əsasən Azərbaycan Respublikasında manat ilə satışlar həyata keçirəcəyimiz üçün onlara yüksək məzənnə fərqi olan avro ilə ödəniş etmək maliyyə risklərinə gətirib çıxara bilər. Bu səbəbdən müvafiq ödəniş avro valyutası ilə edilsə də, məzənnələrarası fərq ödəniş məbləğindən çıxılacaqdır.*(bax:Müqavilənin 8.9 və 8.10-cu bəndlər)*

**8.** Birgə əməkdaşlığın təşkili proseduruna nəzarət etmək məqsədilə müqavilə ilə müəyyən olunmuş qaydada İcra Komitəsi yaradılacaqdır. Komitənin fəaliyyəti ilə bağlı qərarlar sadə səs çoxluğu ilə qəbul olunur. Lakin mübahisələrin həlli xüsusi əhəmiyyətli məsələ olduğundan bununla bağlı qərarlar yalnız yekdilliklə qəbul oluna bilər. Eyni zamanda Komitənin “Nova Defense” MMC-nin nəzarətindən kənar fəaliyyət göstərməsinin qarşısını almaq məqsədilə Kotinənin tərəflərə rüblük hesabat təqdim etməsi öhdəliyi, şübhə halında tərəflərin kənar audit təyin etməsi hüququ müəyyən edilmişdir. Komitəni 50% üzvünün “Ares Technology” QSC-ni təmsil etdiyini və Sədrin qarşı tərəfin təmsilçiləri sırasından seçiləcəyini nəzərə alaraq üzvlərin şəxsi və qarşı tərəfin mənafeyini əməkdaşlıq mənafeyindən üstün tutmasının qarşısını almaq məqsədilə müqavilə ilə “Ares Technology” QSC Sədr və üzvlərinin ayrılıqda vicdanlılıq və peşəkarlığına və əməkdaşlıq məqsədlərinə sadiqliyinə müqavilə ilə zəmanət vermişdir. *(bax:Müqavilənin 5.1.6; 5.2.7 və 10-cu bəndləri)*

**9.** Müqavilə ilə tərəflər birgə əməkdaşlıq ilə bağlı əldə etdikləri məlumatların konfidensiallığını qorumaq öhdəliyi götürmüşdür. Hazırkı vəziyyətdə əsas məlumat əldə edən tərəf “Nova Defense” MMC olduğundan müvafiq öhdəliyin qeyri-müəyyən və ya uzun müddətə müəyyən olunmasının gələcəkdə əsassız iddialara səbəb ola biləcəyini nəzərə alaraq konfidendiallıq öhdəliyinin müddəti müqavilə üzrə Ares Technology QSC tərəfindən təqdim olunan əqli mülkiyyət hüquqlarının qüvvədə olduğu dövrlə məhdudlaşdırılmış və konfidensial məlumat anlayışına daxil olmayan məlumatların sıyahısı verilmişdir.*(bax:Müqavilənin 15-ci bəndi)*

**10.** Tərəflər arasında potensial mübahisələrin həlli üçün ikipilləli mexanizm yaradılmışdır. Belə ki, ilk növbədə mübahisənin həlli ilə İcra komitə məşğul olacaq, əgər razılaşma olmazsa, o zaman, qərar qəbulunda ədalətli və şəffaf yanaşmanın təmin olunması məqsədilə mübahisə müstəsna olaraq London Arbitraj Məhkəməsində və İngilis hüququnun və presedentlərinin tətbiq olunması ilə həll olunacaqdır.*(bax:Müqavilənin 12-ci bəndi)*

**11.** Müqavilə öhdəliklərinin vaxtında və düzgün icrasının təmin olunması məqsədilə müqavilədə məsuliyyət bəndi, eyni zamanda müqavilə öhdəliklərinin üzrsüz səbəbdən pozulması səbəbilə müqaviləyə xitam vermək hüququ, dəymiş zərərin kompensasiyası öhdəliyi detallı bir şəkildə qeyd olunmuşdur. Eyni zamanda Mülki məsuliyyətin və fors-major halları nəticəsində dəyə biləcək bütün növ zərərdən sığorta qaydası müəyyən olunmuş və müvafiq sığorta təşkilatı ilə sığorta müqaviləsinin bağlanması və sığorta haqqı və sığorta ödənişinin tərəflər arasında bərabər bölünməsi müqavilədə nəzərdə tutulmuşdur.*(bax:9 və 11-ci bəndlər)*

Beləliklə, “Nova Defense” MMC-nin hüquqşünasları olaraq birgə əməkdaşlıqla bağlı şirkətimizin mənafeyini yüksək peşəkarlıqla təmsil etməyə nail olmuşuq.